# Moskvada Azərbaycanın İkinci Dünya müharibəsinə verdiyi töhfədən bəhs edən kitabın təqdimatı keçirilib

**Moskva Dövlət Müdafiə Muzeyində "Böyük Qələbənin varisləri" adlı kitabın təqdimat mərasimi olub. Kitabın müəllifi "Diaspor fəaliyyətinə jurnalistlərin dəstəyi" İctimai Birliyinin sədri, azərbaycanlı publisist və tədqiqatçı Fuad Hüseynzadədir.**

Nəşr İkinci Dünya müharibəsində Qələbənin 80 illiyinə həsr olunub və keçmiş Sovet İttifaqı xalqlarının, xüsusilə Azərbaycanın bu Qələbəyə verdiyi töhfəni işıqlandırır.

Təqdimat zamanı çıxış edən müəllif qeyd edib ki, kitab ilk növbədə beynəlxalq auditoriyaya ünvanlanıb. Kitabda Azərbaycanın Qələbəyə verdiyi töhfə, xalqın ictimai-siyasi, iqtisadi və hərbi sahələrdə iştirakı, eləcə də ata və babaları İkinci Dünya müharibəsində döyüşmüş xaricdə yaşayan azərbaycanlıların qəhrəmanlıqları təfərrüatlı şəkildə təhlil olunub.




44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünün bərpasında iştirak etmiş yeni nəslin nümayəndələrinə də xüsusi yer ayrılıb.

Azərbaycanın Rusiyadakı səfirliyinin müşaviri Yusif Vəzirov müəllifi kitabın işıq üzü görməsi münasibətilə təbrik edib və bu cür əsərlərin tarixi yaddaşın qorunması və Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Azərbaycan.- 2025.- 25 may (№108).- S.10.